♦ Naxçıvan MR - 90

NAXÇIVAN – sorağı minilliklərdən gələn qədim Azərbaycan diyarı



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının yaranmasının 90 illiyi ilə əlaqədar imzaladığı sərəncamda qeyd edildiyi kimi, Naxçıvana muxtariyyət statusunun verilməsi bu vilayətin ictimai-siyasi həyatında mühüm hadisə olub çox böyük tarixi əhəmiyyət kəsb edir.

Naxçıvan MR-in 90 illik yubileyinə həsr olunmuş yazıları qəzetlərdən oxuduqca gözlərimin qarşısından Naxçıvanın tarixi keçmişi bir kino lenti kimi keçir, qulaqlarımda min illərin arxasından gələn qədim bir bayatı səslənir.

Naxçıvan Azərbaycanın, o cümlədən dünyanın ən qədim yaşayış məskənlərindən biridir. Aparılmış arxeoloji qazıntılar zamanı tapılan maddi-mədəniyyət nümunələri, Naxçıvan duz mədənində aşkar edilmiş daş duz parçasının içərisində daşlaşmış balıq silueti, Gəmiqaya yazılı abidələri, dağ süxurlarının və torpaq qatlarının öyrənilməsi və s. bu yurdda lap qədimlərdən həyat elementlərinin olduğunu təsdiq edir. Qədim dövr bilicilərinin, dünya şöhrətli alimlərin, görkəmli alim, tarix elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Vəli Əliyevin, akademik İsmayıl Hacıyevin və digər görkəmli alimlərin bu sahədə apardıqları tədqiqatlar elmi ictimaiyyətə məlumdur.

Ümumdünya daşqınına (Nuh tufanına) qədər bu diyarın adının nə olduğu bizim üçün qaranlıq olsa da, Qurani-Kərimdə dəfələrlə xatırladılan tufandan sonra bu ərazidə Həzrəti Nuhun nəslinin - türklərin məskunlaşdığı və burada ilkin sivilizasiyanın başlandığı şəksizdir.

Naxçıvanda Nuh tufanından sonra ilk yaşayış məskənlərindən biri olmaq etibarı ilə təqribən 10 min il bundan əvvəl burada yaşayışın başlanılmasını göstərən və bu gün də mövcud olan tarixi abidələr, kənd, şəhər, oba adları öz əlamətlərini bildirir və deyilənləri təsdiq edir. Gəmiqaya daşları üzərində yazılmış piktoqrafik yazılar, Kolanı nekropolundan tapılmış Günəş Allahının sxematik təsviri və s. nümunələr bu barədə daha dərin düşünməyi tələb edir. Arxeoloji qazıntılar zamanı II Kültəpə ərazisindən tapılan maddi mədəniyyət nümunələri, daş alətlər, monoxrom və polixrom boyalı gildən hazırlanmış saxsı qablar e.ə. III-II minilliyin nümunələri hesab edilir. Naxçıvan şəhərinin binasının təqribən 5000 il bundan öncə qoyulduğunu söyləməklə bərabər, burada ilk yaşayışın daha qədimdən Nuh tufanından sonra başlanıldığı haqqında fikir söyləmək üçün tapılmış maddi-mədəniyyət nümunələrinin əsas verdiyini qeyd etməliyik. Hələ e.ə. III-II minilliklərdə burada sənətkarlığın, kənd təsərrüfatının inkişafı, əkinçiliyin, bağçılığın yaranması, əlverişli coğrafi ərazidə yerləşən Naxçıvan diyarının şöhrətini artırmışdır. Böyük tarixi inkişaf yolu keçən Naxçıvan məmləkətə həm də za-[illegible]an-zaman müxtəlif imperiyala-[illegible]raq dairəsində olmuşdur. [illegible]ərlə işğalçı ordular Naxçı-[illegible]canıb-talamış, dağıdıb viran qoymuşlar. "Səyahətnamə" kitabında Naxçıvan şəhəri binasının Əfrasiyab padşah tərəfindən qoyulduğunu göstərən türk tarixçisi Övliya Çələbi bu ərazinin türklərin ən qədim yaşayış məskənlərindən biri olduğunu qeyd etmişdir. O yazırdı: "Bu şəhər, doğrudan da, öz adına layiqdir. Biri ona Naxçıvan deyir, digəri Nəhşəvan... Əldə edilmiş çoxsaylı arxeoloji materiallar və yazılı mənbələrdən belə nəticə çıxarmaq olar ki, Naxçıvan cənubi Qafqazın ən qədim şəhərlərindən biri olmuşdur. K.A.Nikitin, S.A.Zelinski, F.A.Brokhauz, I.A.Yefron və başqaları belə hesab etmişlər ki, şəhərin yaranma tarixi bizim eradan əvvəl II minilliyin ortalarına aiddir". Hətta F. A. Brokhauz və I. A.Yefronun fikrinə görə, şəhərin binası eramızdan əvvəl 1539-cu ildə qoyulmuşdur. Lakin ərazidə aparılmış arxeoloji qazıntılar nəticəsində məlum olmuşdur ki, burada insanların məskunlaşması tarixi daha qədimlərə gedib çıxır.

Naxçıvan diyarının 6,1 kvadratkilometr ərazini əhatə edən muxtariyyət statusu 16 mart 1921-ci il Moskva və 13 oktyabr 1921-ci il Qars beynəlxalq müqavilələri ilə təsbit edilmişdir. Naxçıvan diyarının sərhədləri 11 kilometr Türkiyə dövləti ilə, 176 kilometr Araz boyunca 1828-ci il Türkmənçay müqaviləsində olduğu kimi İran dövləti, şərqdən, şimaldan və qərbdən Ermənistan Respublikası ilə müəyyən edilmişdir. Naxçıvan Azərbaycanın tərkib hissəsi olaraq öz sərhədləri daxilində muxtar dövlətdir.

Buna baxmayaraq, Naxçıvan torpağı zaman-zaman ermənilərin və onlara dəstək verən digər işğalçıların maraq dairəsində olmuş, bu gün də erməni şovinist qüvvələri bu qədim türk yurdunu Ermənistana birləşdirmək iddiasındadır.

Təkcə onu qeyd etmək lazımdır ki, 1921-ci ildən 1991-ci ilə qədər olan dövrdə 658 kvadratkilometr ərazi Naxçıvandan qoparılaraq Ermənistana birləşdirilmişdir ki, bunun da nəticəsində Naxçıvanın Araz boyunca sərhəddi 13 kilometr azalaraq 163 kilometrə enmiş, Ermənistan ilə sərhədinin uzunluğu 224 kilometrə çatmışdır.

Hər vəchlə 1921-ci ildə bağlanmış tarixi Moskva və Qars müqavilələrinin ləğvinə çalışan ermənilər 1918-ci ildən bəri gözlərində qalan arzularını – Naxçıvan torpaqlarını ələ keçirmək planını gerçəkləşdirməyə çalışırlar. Ötən əsrin sonlarında erməni qəsbkarları yenidən silahlanaraq, Azərbaycanın qədim və tarixi torpağı Qarabağı işğal etdilər. Qazandıqları müvəqqəti qələbədən ruhlanaraq Naxçıvan Muxtar Respublikasının sərhədlərini pozub onu da ələ keçirmək iddiasında olan erməni millətçilərinin layiqli cavabı 90-cı illərin əvvəllərində Naxçıvan MR Ali Məclisinə rəhbərlik edən, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan camaatı tərəfindən verildi. Heydər Əliyevin böyük siyasi təcrübəsi, dünya dövlətləri rəhbərləri arasında olan nüfuzu, tarixi Moskva-Qars müqavilələrinin yenidən gündəmə gətirilməsi ilə Naxçıvanın müdafiəsi təmin edildi. Həmin dövrdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin böyük fəaliyyətini filologiya elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü İsa Həbibbəyli "Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr" kitabında belə qiymətləndirmişdir: "Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının xilası və inkişafı yolunda ciddi və tarixi əhəmiyyətə malik olan addımlar atmaqla müstəqilliyin qazanılmasına və möhkəmləndirilməsinə geniş miqyasda mühüm xidmətlər etmişdir".

Xronoloji ardıcıllıqla izlədiyimiz tarixlərdən göründüyü kimi, Naxçıvan müxtəlif imperiyaların maraq dairəsində olub əldən-ələ keçsə də, dəfələrlə dağıdılıb yerlə – yeksan edilsə də, heç bir işğalçı ordu naxçıvanlıların iradəsini qıra, onların mübariz ruhunu öldürə bilməmişdir. Naxçıvanlılar yaşamış, yaratmış, dağılmış qala və abidələri yenidən bərpa edib, günümüzə qədər gətirib çıxarmışlar. Naxçıvanın qədim tarixindən bu günə qədər izlədiyimiz dövr ərzində ermənilərin Naxçıvan haqqında ərazi iddiaları qaldırmalarının heç bir tarixi, mənəvi, maddi və hüquqi əsası olmadığının bir daha şahidi oluruq. Təsadüfi deyildir ki, bu gün də Naxçıvanda qədim sivilizasiyanı yaşadan, yaşı min illəri ötüb keçən yüzlərlə abidə vardır ki, onların heç birində ermənilərin izi-tozu da görünmür.

Ermənilərin daha çox Rusiya-İran müharibələrinin yekunu olaraq 1813-cü il Gülüstan, 1828-ci il Türkmənçay müqavilələri və Rusiya-Türkiyə (1828-1829) müharibələrinin sonunda Ədirnə (1829) sövdələşməsi ilə bağlı olaraq buraya köçürüldüklərini nəzərə alsaq, 1918-ci ilə qədər Naxçıvanda yaşayan azacıq erməni toplumunun hansı tarixə malik olduqları tamamilə aydınlaşar. Ermənilər yaşadıqları ərazilərdə həmişə xəyanət və etibarsızlığın bariz nümunəsinə çevrilmiş, ona görə də heç yerdə daimi məskunlaşa bilməmişlər. Qonşularla münasibətləri gərginləşdirmiş, müxtəlif ərazi iddiaları, tamahkarlıqları, acgözlükləri ilə "pis qonşu" imici formalaşdırmış, axır nəticədə qanlı müharibələrə səbəb olmuş, böyük qırğınlar törətmiş, özləri də həyata keçirmək istədikləri məkr və separatizmin qurbanlarına çevrilmişlər.

1905-1906-cı illər qırğınlarında gözü qandan doymayan ermənilər 1918-ci ildə yenidən baş qaldırıb Azərbaycanın hər yerində misli görünməmiş vəhşiliklər törətmişlər. Ermənilər tərəfindən qocalar, uşaqlar, qadınlar diri-diri yandırılır, süngüyə keçirilir, burun, qulaq və döşləri kəsilir, gözdaş-qalaq edilirdi. On minlərlə dinc türk sakini evlərində yandırılır və güllələnirdi. S.Şaumyanın "rejissorluğu" ilə həyata keçirilən bu faciənin baş rolunun ifaçısı tayqulaq general Andranik idi.

Bu illərdə Naxçıvanda vəziyyət daha da gərginləşmişdi. Azərbaycan hökumətindən kömək ala bilməyən Naxçıvan əlacsız duruma düşmüşdü. Gündən-günə vəziyyətin gərginləşdiyini görən Naxçıvan camaatı Türkiyədən kömək istəyir. 1918-ci ilin iyul ayında Türkiyənin I Qafqaz Ordu Komandanı Kazım Qara Bəkir paşanın rəhbərliyi altında Naxçıvana gələn türk ordusu azərbaycanlı əhalinin xilası və Naxçıvanın qurtuluşu yolunda önəmli addımlar atır. Avqust ayının 1- də Kazım Qara Bəkir paşa hərbi qərargahın Naxçıvana köçürülməsi haqqında əmr verir, avqustun 7-də Uluxanlı-Qəmərli məntəqəsindən keçərək özü də Naxçıvana gəlir. Avqustun 8-də Naxçıvan xanının evində Kazım Qara Bəkir paşanın şərəfinə qəbul təşkil olunur. Türk ordusunun xilaskarlıq missiyası öz nəticəsini verir. Hər yerdə haqqı, ədalətə bərpa edən türk ordusunun səyi ilə Naxçıvanın və onun əzəli sakinlərinin hüquqları bərpa olunur. Bildiyimiz kimi, bu, 1921-ci ilin mart ayında Moskva və oktyabr ayında Qars müqavilələri ilə təsbitlənir. Naxçıvanın ərazi mənsubiyyəti məsələsi təsdiq olunur, onun sərhədləri qəti şəkildə müəyyən edilir. Naxçıvan vilayəti öz sərhədləri daxilində Azərbaycanın himayəsi altında muxtariyyət qazanır.

Naxçıvanın muxtariyyət statusu qazanmasından 90 il ötməsinə baxmayaraq indi də Naxçıvan haqqında məsələ qaldırıb, aranı qarışdırmaqla məşğul olan erməni siyasətçiləri Moskva-Qars müqavilələrinin ləğvini gündəmə gətirmək istəyirlər. Düşünürəm ki, dünyanın müxtəlif ölkələrindəki Azərbaycan diasporunun nümayəndələri bu barədə öz etirazlarını bildirmiş olacaqlar. Bu, onu göstərir ki, Naxçıvan MR-in 90 illik yubileyinə həsr olunmuş tədbirlər, onlarla, yüzlərlə müxtəlif yazılar, müxtəlif mövzulu verilişlər, müxtəlif sənədlər, müxtəlif fotoşəkillər, müxtəlif kitablar, müxtəlif xəritələr, müxtəlif filmlər, müxtəlif sənədli filmlər, müxtəlif elmi-publisistik yazılar, müxtəlif elmi-publisistik çıxışlar, müxtəlif elmi-publisistik konferanslar, müxtəlif elmi-publisistik müzakirələr, müxtəlif elmi-publisistik mülahizələr, müxtəlif elmi-publisistik müşahidələr, müxtəlif elmi-publisistik müqayisələr, müxtəlif elmi-publisistik müqaddimələr, müxtəlif elmi-publisistik müxtəlif elmi-publisistik müxtəlif elmi-publisistik